Azərbaycan.-2023.- 15 oktyabr, № 225.- S.19.

# Qələbə dastanının müəllifi

**20 il... Əsrin dörddə birindən 5 il az vaxt, ömürdən də bir parça. Və bu 20 il Azərbaycanda çoxlu sayda dəyişikliklərlə, faydalı əməllər və hadisələrlə müşayiət olundu. Həmin dəyişikliklər fonunda diqqətçəkən məqamlardan biri iqtisadi inkişafdır. Təhsil, elm və mədəniyyətin, əhalinin həyat səviyyəsinin müsbət istiqamətdə dəyişməsi, iqtisadiyyatın rəqabət qabiliyyəti, ümumi daxili məhsulun, eləcə də ümumi milli məhsulun artması iqtisadi proses kimi 20 illik bir zaman kəsiyində baş verdi.**

20 ildə dünyanı idarə edənlərin "mənəm-mənəm"liyinin nəticəsində çoxlu sayda qanlı qarşıdurmaların, müharibələrin, iqtisadi, siyasi, humanitar böhranların baş verdiyi situasiyalarda Azərbaycanı qoruyub saxlamaq, onun real müstəqilliyini daha da möhkəmlətmək, ölkəmizə qarşı törədilən təxribatların qarşısını almaq İlham Əliyev kimi bir liderin adı ilə qoşa çəkildi. Dönüb arxaya baxanda bir fakt açıq-aydın görünür: bütün sahələrdə inkişaf tempinə sürət vermək yalnız və yalnız sayılıb-seçilən, kamil şəxsiyyət və idarəetmə qabiliyyəti ilə fərqlənən liderin boyuna biçilib. Bu, belə də olmalıdır. Axı Azərbaycan Prezidenti İlham Əliyev kamil şəxsiyyəti, fövqəladə intellekti, xüsusi təşkilatçılıq və idarəetmə qabiliyyəti, dövlətinə və millətinə bağlılığı, Azərbaycan uğrunda apardığı bənzərsiz mübarizəsi ilə seçilən Ümummilli Lider Heydər Əliyev siyasətinin layiqli davamçısıdır.

Azərbaycanın 32 illik müstəqilliyinin yarıdan çoxu Prezident İlham Əliyevin adı ilə bağlıdır. 20 ildə Azərbaycanda həyata keçirilən uğurlu siyasət, iqtisadiyyatın dinamik inkişafı, onun davamlı artımı, biznes mühitinin yaxşılaşdırılması sahəsində atılan qətiyyətli və cəsarətli addımlar, eləcə də respublikamızın dünyanın enerji təminatında aparıcı ölkəyə çevrilməsi İlham Əliyevin iqtisadi siyasətinin nəticəsidir. Bu gün Azərbaycan Cənubi Qafqazda iqtisadi güc sahibidir. Bilavasitə ölkə rəhbərinin təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi irimiqyaslı layihələr təkcə regionun deyil, digər bölgələrin inkişafında da mühüm rol oynayır. Enerji ixracındakı infrastrukturlar Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına keçidini təmin etdi. Bu təminatın arxasında dayanan Azərbaycan Prezidentidir.

Prezident İlham Əliyev 20 ildir Azərbaycan xalqına verdiyi "hər bir azərbaycanlının prezidenti olacağam" vədini bir an belə unutmur. Millət, xalq yolunda, vətən, torpaq uğrunda dövlətin və dövlətçiliyin nüfuzunu günbəgün artırır. İki onillik ərzində İlham Əliyevin xalqına və dövlətinə müstəsna tarixi xidmətləri sayəsində həm beynəlxalq, həm regional səviyyədə, həm də ölkə daxilində o qədər parlaq uğurlara imza atıldı ki, onun qatı opponentləri belə Azərbaycan liderinin qələbəsini qəbul etməyə məcbur oldular. Prezident 20 ildə Azərbaycanı möhkəmləndirdi, böyütdü, inkişaf etdirdi, ordu quruculuğunu "tramplin sıçrayışı" ilə yüksəltdi, Qarabağ "yara"sını Zəfərlə sağaltdı. Hər bir azərbaycanlının Prezidenti olan İlham Əliyev təkcə Azərbaycanda deyil, dünyanın hər yerində yaşayan soydaşlarımıza Zəfər sevincini yaşatdı, qələbə tamını dadızdırdı.

20 illik bir dövrün ən gözəl, ən möhtəşəm, ən əzəmətli akkordu 44 günlük Vətən müharibəsində vuruldu. Müzəffər Ali Baş Komandanın müstəsna sərkərdəlik qabiliyyəti, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və ordu-xalq-iqtidar birliyi ölkənin gələcəyini təmin edən ən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq tarixini yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi, düşmən üzərində tarixi Zəfər çaldı. Bu Zəfər Vətənə qayıdış, tarixə qayıdışdır. Hərbi əməliyyatların aparılması xarakterinə və icrasına, döyüşçülərimizin şücaətinə görə Azərbaycan tarixində misli görünməmiş qələbədir. Əlbəttə ki, bu qələbənin baş memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Azərbaycan liderinin dediyi kimi, döyüş meydanında qazanılan bu qələbə ilə ölkəmiz üçün yeni dövr açıldı. "Qarabağda qazanılan Zəfər həm beynəlxalq hüquq, həm diplomatik, həm də hərbi baxımdan Azərbaycana ana südü kimi halaldır", - deyən qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan nə qədər də haqlıdır! Həmin halallığın mənbəyi Azərbaycan əsgəri və onun Müzəffər Ali Baş Komandanı İlham Əliyevdir.

Ali Baş Komandan bizi bu Zəfərə çatdırana qədər ömrünün 17 ilini yorulmadan, "uf" demədən Azərbaycanın xilasına, torpaqlarının bütövlüyünə nail olmaq üçün gecə-gündüz çalışıb. Prezident bizim gördüklərimizdən əlavə, pərdə arxasında bilmədiyimiz, hətta təsəvvür etməyəcəyimiz problemləri həll edib. Kimlərinsə qarşısında mərdcəsinə duruş gətirib, əyilməyib, Azərbycanın haqlı davasını sübuta yetirərək ermənilərin havadarlarını yerində oturdub, dünyanın ikili standartlarını əlinin arxası ilə geri çevirib. Bütün bunlar üçün nə qədər stres yaşayıb. Amma bir gün olsun belə yolundan dönməyib, saysız-hesabsız problemləri həll edib. Bu sətirləri yazarkən Prezidentin Zəfərdən sonra Şuşada ilk dəfə keçirilən "Xarıbülbül" festivalında kövrəldiyi səhnəni xatırlayıram. Ali Baş Komandanın kövrəlmiş gözlərindən mübarizələrlə dolu ömürdəki 18 illik bir zaman kəsiyinin acılı-şirinli, amma qürurla "yüklənmiş" anları boylanırdı. Bəlkə də, dünyanın ən peşəkar, ən istedadlı rəssamı belə həmin mənzərəni çəkə bilməzdi.

20 illik bir zaman kəsiyi Azərbaycan Prezidentini ömrün sərt yollarında sınadı və o, bütün bunlardan alnıaçıq, başıuca çıxdı, tarixin qalib sərkərdəsi kimi yaddaşlara həkk olundu. Ali Baş Komandan kimi Prezident taleyinin uca şərəfini, toxunulmaz qürurunu 20 illik bir dövrün "alnına yazdı". Ötənlərin ağrı-acısına "dəmir yumruğu" ilə Zəfər adlı zərbə vurdu. Bu zərbə Azərbaycan xalqının son 30 illik tarixinə qızıl hərflərlə yazılmış dastan oldu. Bu Zəfər dastanı Prezidentin, Ali Baş Komandanın qətiyyəti, dəyanəti, cəsarəti və doğru siyasətinin təcəssümüdür.

Böyük Zəfərdən əvvəl hər il doğum gününü yurd-yuvasından köçkün düşmüş qəlbisınıq, gözləri nəmli və qəmli insanların yanında qeyd edən dövlət başçısı sinəsində çox böyük ürək daşıyan azərbaycanlıdır. Bu cür geniş ürək hər ölkə rəhbərində olmur. Sadə, səmimi, təvazökar, millətini sevən, xalqına güvənən və bütün bunların qarşılığını artıqlaması ilə hər azərbaycanlıda görən dövlət başçısıdır Ali Baş Komandan İlham Əliyev. Bu dünyada 60 illik yubileyini isti ocağında, rahat evində deyil, işğaldan yenicə azad edilmiş doğma torpağında qeyd edən neçə ölkə rəhbəri var? Bir nəfər! Bu, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir.

20 ildə Ali Baş Komandanın Vətən sevgisi ali duyğularla yükləndi. Prezident kimi şərəfli bir vəzifənin məsuliyyətindən doğan və həmin sevgidən yoğrulmuş hisslə 44 günlük bir dönəmdə dünyaya hayqırdı: Qarabağ Azərbaycandır! Böyük sərkərdə təkcə düşmənə deyil, onun havadarlarına da sübut etdi ki, bu millət alnına vurulan ləkə ilə yaşaya bilməz. 44 günlük Xalq-Dövlət-Ordu birliyi Ali Baş Komandanın dəmir yumruğuna dönüb düşmənin başını əzdi. Belə sarsılmaz birlik indiyə kimi nə Azərbaycan tarixində, nə də dünyanın başqa ölkələrində olub.

20 illik zaman kəsiyinin sonuncu sentyabrı, bəlkə də, İlham Əliyevin Prezident taleyində builki kimi möhtəşəm və təntənəli olmayıb. Ali Baş Komandanın qətiyyətinin və cəsarətinin nümunəsini əks etdirən 23 saat 43 dəqiqəlik kiçik bir zaman kəsiyi Azərbaycan tarixinin şərəf səhifəsidir. Bu səhifəni Ali Baş Komandan İlham Əliyev yazdı. Bu yazı Azərbaycan xalqının yenidən doğuşudur, Azərbaycan dövlətinin ən yeni tarixidir. Müzəffər Ali Baş Komandan Azərbaycanın son 200 illik tarixinə Zəfər yazan tək sərkərdədir.

Böyük Zəfərin baş memarı, qələbə dastanının müəllifi İlham Əliyevin həyatının 20 illik Prezidentlik dövrü Azərbaycan xalqının şansı, Azərbaycan dövlətinin şərəfi və ləyaqətidir. Susuzluqdan çatlamış dodaqlar bir damcı suya təşnə olduğu kimi, torpaq həsrətindən qəlbləri paramparça olmuş köçkünlər də yurd-yuvalarına dönməyə təşnə idilər. Üç il əvvəlki Zəfərin, bir ay əvvəlki tam və qəti Qələbənin memarı oldu İlham Əliyev!

Möhtərəm İlham Əliyev dövlət quruculuğunda və iqtisadi dirçəlişdə, ictimai-siyasi və sosial həyatda tərəqqiyə nail olunan, işğaldan azad olunmuş torpaqlara Böyük qayıdışın uğurla həyata keçirildiyi 20 illik bir epoxanın müəllifidir.

Prezident İlham Əliyev 44 günlük müharibə günlərində dünyaya sübut etdi ki, Azərbaycan xalqı məğrur və yenilməzdir. Və həmin məğrur xalqın başçısı da qürurlu, qətiyyətli, cəsarətli, ləyaqətli, özünə güvənən, xalqına etibar edən, islahatçı, praqmatik, Vətən müharibəsinin "dəmir yumruq"lu qəhrəmanı, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən, adını əbədi olaraq tarixə yazan lider İlham Əliyevdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*